# Vətən, zəfər nəğməkarı S.Rüstəm publisistikada

Yaradıcılığının ilk illərindən etibarən görkəmli şairimiz S.Rüstəmin irili-xırdalı bütün əsərlərinə mətbuat səhifələri açıq olub. Doğma torpağını sevən vətənpərvər şair əsərlərinin əksəriyyətində vətənə olan məhəbbətini, rəğbətini bədii lövhələrlə əks etdrmişdir. Xüsusən Böyük Vətən Müharibəsi dövründə fəallığı artan şair sonrakı dövrlərdə də Vətənimizi iki yerə parçalayanlara, faşizmə qarşı yazdığı ədəbi nümunələrdə öz nifrətini bildirir, torpağımızı qarşı-qarış qoruyacaqlarına and içirdi.

Cəbhədə qırsam da gündə bir ordu,
Sönməz qəlbimdəki intiqam odu.

Şairi intiqama çağıran müharibə dövründə ehtiyacdan solan üzlər, valideynini "qara kagiz"ını alarkən gözləri qan-yaşla dolan körpə gözlərdir. Bütün bunlar şair üçün göz dağı idi. Böyük Vətən müharibəsi dövründə baş verən bu və ya digər hadisələr, Cənubi Azərbaycanda Milli Azadlıq Hərəkatının başlanması, yeni hökumətin yaranması şairin yeni-yeni əsərlər ərsəyə çıxartmasına stimul verirdi. Əsərlərinin əksəriyyəti mətbuat şəhifələrində nəşr olunurdu. Ardıcıl olaraq publisist yazıçılarla mətbu orqanlarda çıxış edən şairin özü haqqında da müxtəlif səpkili yazılar nəşr olunurdu. 1941-ci ildən başlamış ömrünün son günlərinə qədər fərqli mətbu orqanlarla əlaqə saxlamışdır. Bu yazıların əksəriyyətində zəfər nəğməkarı, vətənpərvər şairin yazı manerası bütün pafosu ilə üstünlüyünü saxlayır. "Ədəbiyyat və incəsənət" qəzetinin 1975-ci il 29 mart sayında Rza Quliyevin S.Rüstəm haqqında "Vətən, rəşadət, zəfər nəğməkrı" adlı publisist yazısı getmişdir. Məqalədə xalqını sevən, onun yenilməz vüqarını qələmə alan demokrat şairin fars şovinizminə, faşist işğalçılarına qarşı uzun illər yorulmadan tutduğu mövqe ədəbiyyatşünas qələmi ilə bir daha işıqlandırılmış, şairin düşmənə qarşı apardığı ideoliji mübarizəsi diqqətli şəkildə təhlil olunmuşdur. R. Quliyev yazır: "Süleyman Rüstəmin şeirləri inam haqqında, düşmən üzərində qələbənin labüdlüyü haqqında ürəklərə, könüllərə qüvvət bəxş edən, onları qələbəyə və döyüşə ruhlandıran, geniş kütlələrin əhval-ruhiyyəsini təcəssüm etdirən mənəvi gümrahlıq nəğməsidir" (1,4). Şair üçün Vətəni kimi Vətən övladı da müqəddəsdir. "And olsun bugünkü, gələcək nəslə" deyən şair ürəkləri ehtizaza gətirir. Düşmən üzərində qələbə naminə bu andı içir. Hər kəs evindəki axırıncı tikəsini belə müdafiə fonduna verdiyi bir dövrdə xalqın şairi davanın qurtarmasını, Vətənimiz üzərindəki buludların dağılmasını, torpağımızın bir daha tapdanmamasını arzulayır. Şair gələcəyə ümidlə baxır. Vətənin təntənəsini, toy-bayramlı günlərini əvvəlcədən görür. Onun əsərlərini mətbuatdan oxuyan insanların həyata, yaşama, gələcəyə inamı artır. Şairin həyəcanı, həssaslığı ustalıqla birləşir və təsirli, mənalı bədii nümunələr ortaya çıxır. Şair Vətən oğlunun hünərinə inanır:

Qoymaz axsın qoca Qafqazda günahsız qanlar
Fikri, vicdanı təmiz, qəlbi təmiz insanlar.
Uca dağlarda polad bir qaladır hər daşımız,
Yox, əyilməz qaniçən yadlara məğrur başımız.

Vətənin cənubunda fədailər, şimalında tank qoşunları general-mayoru Həzi Aslanov kimi qəhrəmanlar şairin təbini coşdururdu. Həzi Aslanova həsr etdiyi "Vətən oğlu" şeiri hərbi vətənpərvərlik mövzusunda yazılmış ən qiymətli əsərdir. Şair onu Qafqaz dağlarından ərşə qalxan şanlı qartala bənzədir. Xalq qəhrəmanı Babəkin məzarından qalxıb öz övladıyla fəxr etməsini istəyir. Bu məqamda şair təxəyyülü zamanla hesablaşmaq istəmir. Tarixə qılınclarıyla zəfər yazan mərd oğulların qarşısında əyilməyən bayrağımızla bərabər baş əyir. Rza Quliyev S.Rüstəm haqqında oçerk yazarkən şair sağ idi. O yazırdı: "Seleyman Rüstəm Vətən, rəşadət, zəfər şairi, xalqlar dostluğu və qardaşlığının alovlu nəğməkarıdır.... Qəhrəmanlar haqqında dastanlar yaradan xalq şairinin bu gün min-min ana, min-min ata, min-min gənc oğlan və qız əlini sıxır, ona ürəkdən alqış deyir" (1,5).

Böyük Vətən Müharibəsindən uzun illər keçir, Milli Azadlıq Hərəkatı "boğulur", zaman keçir, ancaq S. Rüstəm ürəyi və qələmi o illəri unuda bilmir. "Azərbaycan" jurnalının 1971-ci il oktyabr sayında güclü qələm sahiblərinin imzaları ilə üşləşirik. M. Gülgünün "Apardı sellər Saranı" poeması, M. Arifin "İstedad və əmək", M.Cəfərovun "Əməlpərvər ədib", Mir Cəlalın "Ədibin şərəfli yolu" və s. yazılarla bərabər S. Rüstəm poeziyasından da nümunələr var. Vətənin təbiətindən, baharın gözəlliyindən yazan şair bayrağımızı, Təbrizi unutmur. "Bayrağımındır" şeirində əldə qələm seyrə çıxıb yolları yoran şair onun əsərlərinin vaxtilə düşmənə üstün gəldiyinin bilincindədir. Təbinin dağ şəlaləsi kimi coşğunluğu "başını dumanlandırmayıb".

Düşmənlərə üstün gələn od dalğalı şerim
Coşğun Xəzərimdən daha çox coşğun çağımındır.
Şair kimi bir gör necə bəxtim gətirib ki,
Şerimdəki, mahnımdakı rəng bayrağımındır (2,65).

"Könlümə Təbriz düşdü" deyən şair illər uzunu unuda bilmədiyi bu gözəl şəhəri, cənublu qardaş və bacılarını, sevgilisini yada salır. Təbrizin dərdini xüsusi olaraq vurğulayır:

Təbrizin dərdi mənim dərdim olub çoxdandır,
Ordadır nazlı nigar, könlümə Təbriz düşdü [2, 65).

Şair gördüklərindən, bildiklərindən yazır. Özünün dediyi kimi, onun həqiqəti "ləkə götürməyən həqiqətidir". "Ədəbiyyat və incəsənət" qəzetinin 1978-ci il 18 may sayında əsərli ilə xalqın gözünü, könlünü oxşayan şairin yenə Cənubi Azərbaycan, Təbriz "yarası qövr edir". 1978-ci ildə Cənubi Azərbaycanda inqilab alovları yenidən baş qaldırdı. 1946-cı ildə ailəsini, övladını itirən, yanar ürəklə həyatını davam etdirən fədailər, həlak olmuş fədai yaxınları zülmə tab gətirməyib yenidən özünümüdafiəyə qalxdı. Bu tayda bir çoxları kimi S.Rüstəm də onların səsinə səs verdi. Yurdunun hər zərrəsi ona əziz olan şairin varlığı, ruhu Təbrizdə döyünür, Zəncanda nəfəs alır. Şeirinə sərhəd qoymayan şairin əsərləri Təbrizdə dillər əzbəridir. O əsərləri ki, hər misrasında həsrət var, dərd, yara var.

Neyləyim, dostlar, yenə qan qardaşım tufandadır,
Sözlərim dillərdədir, Təbrizdədir, Zəncandadır.



Bircə an olsun da ayrılmaz o taydan gözlərim.
Təbrizin hər güşəsi başdan -başa al qandadır, (3,4)

Nə şairin, nə də onun xalqının özgə torpağında gözü yoxdur, düşmənə sözü odur ki, onun torğından əlini çəksin. Televizorda, Tehran nümayişində qara, matəm çadralı bacılarını görən şairin aclıqdan, ehtiyacdan ömrü xəzana dönmüş, haqqını arayan bu insanlara ürəyi ağrayır. Düşüncələr içində sübhədək yatmır. "Rədd olsun zülm" "sloqanıyla" küçələrə çıxan, etiraz ordusunun qabağında yeriyən, ərləri, oğulları zindanda olan, dərdli, başı bəlalı bu qadınlar azadlıq döyüşündə qan, ölüm görüb. Bu yolda övladlarını qurban verib. İndi isə meydanda açılan güllələrə sinə gərmələri şairi "yaralayır". "Bacılarımı gördüm" şeirində yazır:

Ürəyimə sığmayır Təbrizin qanlı yası,
Əskilmir küçələrdən coşan insan dalğası.
Qeyrətə bax, qeyrətə, nümayişdə çadrası-
Al qanına boyalı bacılarımı gördüm. (3,4)

Cənub həsrəti sönməyən şair "Ədəbiyyat və incəsənət"qəzetinin 1978-ci il, 23 dekabr sayında "Cənub həsrəti" dəftərindən secdiyi şeir nümunələri ilə çıxış edir. Uzun illərdir ki, Təbriz dərdi onun ən öncül düşüncələrindən olub. Odur ki, şeirinin birini "Nigaranlıq çəkirəm" adlandırması başa düşüləndir. Ömrü boyu əməyinin bəhrəsiz olmadığına inanan şair Təbriz dərdinin, həsrətinin də bitəcəyinə inanır. Ancaq Təbrizi anmadan yaşaya bilmir, süfrəsindəki duz-çörəyi də nigarandır. Düşünür ki, Təbriz elinin şənliyini gözləri ilə görməsə, ürəyi torpaq altında da sakit ola bilməz.

Mən Süleyman gecə-gündüz nigaranlıq çəkirəm,
Anıram Təbrizi qan yaşla dolur göz bəbəyim (4,3)

"Uzaq deyil" şeirində Təbrizin adlı-sanlı günlərini yada salır. Qara illərin gətirdiyi qara yellər onun gülüstanını solduruｂ. Torpağının hər zərrəsi qızıl olan, güvənilərək mərd ogul, qız sahibi, yer üzündə tayı, bərabəri olmayan Təbriz ayrılığı ürəkləri dərdə salıb. Təbrizin qocası da, cavanı da heç vaxt azadlıq yolundan çəkilməyib, döyüşlərdə ürəkli olub, cəllada baş əyməyib. Şanlı tarixi olan bu şəhərin bağçası, bağı alov içərisindədir, anaların ahı ərşə dayanıb, hər küçəsi, meydanı qızıl qana boyanıb. Dönə-dönə ön səngərdə düşmənə meydan oxuyan qədim şəhərin xoş dövranı uzaq deyil.

Canım sənə qurban olsun, ey vətən!
Qüdrətini bilməsə də, hər yetən.
Varlığımla inanıram buna mən
Uzaq deyil xoş dövranı Təbrizin (4, 3)

Həmin səhifədə verilən "Bir ovuc torpaq", "Xəbərim var"şeirlərində də Təbriz sarıdan xeyli kədəri olduğunu, gedə bilməsə də nəzərini Təbrizdən çəkmədiyini bildirir. Qan qardaşından bir xahişi var: nə qədər ki, əli qələm tutur, gözü dünyanı aydın görür, ürəyi döyünür, vüsala yetişmək istəyir. Bakıdakı qardaşlarına bir ovuc torpaq göndərməsini xahiş edir. O torpağı məhbbətlə bağdakı torpağına qatacaq. Burda şairin fikirlərini iki şəkildə qəbul etmək olar: birincisi, Vətəninin yarısından gətirilən bir ovuc torpağı bu taydakı torpağına qatmaq istəyir, ikincisi, dünyasını dəyişməmiş Vətənin bütövlüyünü görmək isəyir. İkinci versiya daha "agır basır":

Gəl qardaşım, qardaşını gəl dolandır öz başına,
Çox demirəm, bircə ovuc torpaq göndər qardaşına

Şair qan qardaşının orada səhəri qəmlər içində açdığını bildirir. Odur ki, dözmür, dayanmadan onun şəninə yüzlərlə könül nəğmələri yazır.

S.Rüstəm özü uzun illər mətbuatda publisist yazılarla çıxış edib. "Ədəbiyyat və incəsənət" qəzetinin 1980-ci il 30 may tarixli sayında həm Cənubi Azərbaycanı qəlbən sevənlərdən biri Cəfər Xəndanın yubiley gecəsi haqqında məlumat, həm də Süleynan Rüstəmin C.Xəndan haqqında məqaləsi var. Qəzetdə ədəbiyyatşünas alim, professor, Cənubi Azərbaycan ədəbiyyatının tədqiqatçılarından olan C.Xəndanın 70 illiyinə həsr olunmuş xatirə gecəsində İmran Qasımovun, Pənah Xəlilovun məruzələri, M.İbrahimovun, B.Vahabzadənin, Q. Məmmədlinin, A. Zamanovun söylədiyi ürək sözləri haqqında məlumat var. S.Rüstəm də "Yaxşı dost, yaxşı alim" adlı yazısında qələm dostu, alim, pedaqoq C.Xəndanı məhəbbətlə yad edir. Onu uzun illərin dostu, xeyirxahlıq mücəssəməsi kimi xatırlayır. Şeir vurğunu, nikbin insan, sinəsi klassik və müasir şairlərin şeirləri ilə dolu bir şəxs kimi qiymətləndirir. Böyük Vətən müharibəsi illərində M.İbrahimov və S.Rüstəm İrandan vətənə qayıtdıqdan sonra da Cəfər Xəndanın Təbrizdə qalıb "Vətən yolunda" qəzeti redaksiyasında çalışdığını unutmadığını yazır. S.Rüstəm yazır: "Cənubi Azərbaycanda yazıb-yaradan qüvvələr üçün birlik, cəmiyyət yaratmaq işində Cəfər Xəndan çox səmərəli fəaliyyət göstərmişdir" (5, 6). Şair C.Xəndanın gözəl şair, publisist və ədəbiyyatşünas alim kimi tanıdığını göstərir, onun "Təbrizin Qəməri" adlı poeması, "Qəhrəmanın tüfəngi", "Təbriz" və başqa şeirləri haqqında fikirlərini söyləyir. C. Xəndanın Təbrizi Xaqaninin əsərlərindən tanıdığının, keçmişi haqqında ətraflı məlumatı olduğunun, "Göy məscidi" uçuq görəndə qəlbinin ağrıdığının şahidi oluruq. C.Xəndan "Qəhrəmanın tüfəngi" şeirində yazır:

Nədir, nə var, nə olubdur, bu təntənə neçindir?
Bütün bunlar milli dövlət, milli ordu üçündür!
Azərbaycan xalqı qalxıb bir nəfərtək ayağa,
And içərək Səttərxanın qaldırdığı bayrağa! (5,6)

S.Rüstəm dostluqda səmimi, təbii, möhkəm, dözümlü, "dağ boyda ürəyi olan" C.Xəndanın maraqlı bir şeirini də verməyi unutmur.

Mən dostunam, aç gözlərini, yaxşı nəzər sal,
Dostluqda hamı Cəfər Xəndan ola bilməz! (5,6)

"Ədəbiyyat və İncəsənət" qəzetinin 1988-ci il, 01 may tarixli sayında S.Rüstəmin "Biz də səfərbərdik" adlı məqaləsi şairin hərbi geyimli bir şəkli ilə bərabər verilib. S.Rüstəm yazır: "Böyük Vətən müharibəsi illərində bizim qələm ordumuz da səfərbərdik. Hamımızın əsərləri elə bil ki, əsgər şineli geyinmişdi, iti, kəskin sətirlərimizlə cəbhədəydik. Mən də onlardan biriydim. Ordu sıralarında əvvəlcə Cənubi Azərbaycanda oldum..." (6,2). Onu da qeyd edək ki, həmin qələm ordusunun tərkibində S.Vurğun, M.Hüseyn, Ə.Məmmədxanlı, M.Rahim, Z.Xəlil, Q.Məmmədli, C. Xəndan və b. var idi. S.Rüstəm eyni məzmunlu məqaləni 1942-ci ildə "Kommunist" qəzetində də nəşr etdirib. Mətbuat səhifələrini vərəqlədikcə S.Rüstəmin müxtəlif məzmunlu poeziya nümunələri ilə tez-tez rastlaşırıq. Bu şeirlərin içərisində Cənubi Azərbaycanla, azadlıq mübarizəsinin xatırlanması ilə bağlı mütləq nəsə olur. "Azərbaycan" jurnalının 1985-ci il, 10-cu sayında S.Rüstəm poeziyasından nümunələr var: "Təbrizli Süleyman oldum", "O taylı gözələ", "Nəvəmin şanapipik nağılı", "Mübarizə elan edirəm" və s. Bu şeirlərində şair həmişə olduğu kimi nahaq qan tökənlərə qarşı öz nifrət dolu hisslərini əks etdirib. "Azərbaycan müəllimi"qəzetinin 1986-cı il, 21 may sayında Ağəddin Mansurzadə "Mən Təbrizi gördüm" adlı məqaləsi ilə çıxış edib. Müəllif Təbriz həsrətli bir qələm sahibidir. Ancaq S.Rüstəmin 1986-cı ildə "Gənclik" nəşriyyatı tərəfindən nəfis tərtibatda buraxılmış "Təbrizim" adlı kitabını oxuyan müəllif şairin poeziyasının dərinliyinə enərək qədim şəhəri S.Rüstəm qələminin gözü ilə görmüş, Təbriz həsrətini dindirmişdir. Cənubi Azərbaycanın mərkəzi şəhəri Təbrizə sonsuz məhəbbətini kövrək misralarda əks etdirən S.Rüstəmin poeziyasında Cənubu gəzən A. Mansurzadə çox təsirlənir:

Qədrini ayrılıq çəkənlər bilir,
Hicranda göz yaşı tökənlər bilir,
Ömrünə qaranlıq çökənlər bilir... (7,4)

***(Davamı 15-ci səhifədə)***

# Vətən, zəfər nəğməkarı S.Rüstəm publisistikada

*(Əvvəli 13-cü səhifədə)*

Təbrizin "bağından gül-çiçək dər.."ən müəllifin ovqatı dəyişir, dərdi təzələnir. Şeiri oxuyan oxucunun Cənub həsrəti güclənir. İllərlə S.Rüstəmin mətbuata səpələnmiş poeziya nümunələrində Cənub dərdiylə üzləşən oxucu artıq bu dərdli sətirləri toplu halında əldə edir, öz münasibətini bildirir.

Müəllifin də düşüncələri 1945-46-cı illərin Milli Azadlıq Hərəkatı dövrünə qədər uzun yol alır. S. Rüstəm Cənublu bacı və qardaşlarına "Azadlıq vuruşunda ürəyin parçalansa, qoparıb bu sinəmdən ürəyimi verərəm" deyəndə müəllif şairdəki Vətən yanğısına, sevginin gücünə inanır. O yerdə ki, ədalət boğulur, xəyanət at oynadır, haqsız qalib çıxır, orada susmaq olmaz. S. Rüstəm də bu məqamda qələmini silaha çevirir, sipər edir, gah da Arazın dilindən hayqırır:

Ay ellər, qardaşı qan qardaşından
Ayıran ayırdı, mən ayırmadım! (7,4)

Müəllif məqalədə şairin kitabı haqqında yerli-yerində fikirlər söyləyir. S.Rüstəmin vətən, azadlıq, mübarizə ilə bağlı fikirləri ilə razılaşır. Azadlığın yolu həmişə daşkəsəkli olub. Dərd-bəla gəlir, amma öz-özünə getmir. Azadlığı qanınla, canınla əldə etməlisən. Bu yolda kiminin qismətinə silah, kiminin qismətinə qələm düşür. Onu da unutmaq olmaz ki, S.Rüstəm müharibə dövründə hərbi təhsil də almışdı. S.Rüstəm Təbrizin azadlığını ümumxalq mübarizəsində görürdü. Müəllif də kitabdan gətirdiyi nümunələrlə bu fikri təsdiqləyir:

Milyon inşallah ilə ağ günə çıxmaq olmaz,
Mən desəm "Cəngi"ni çal, sən demə: "allah qoysa".

Səadət və azadlıq güc və hünər ilə qazanılmalıdır. A.Mansurzadə ən sonda yazır: ".... indi özün də gördün və inandın ki, mən Təbrizi gördüm?!" "Təbrizim"lə görüşməyə, "Təbrizimi oxumağa, Təbrizi görməyə sən də tələs!" (7,4)

"Azərbaycan" jurnalının 1986-cı il 3 sayında S.Rüstəmin 80 illiyi ilə bağlı Ə. Ağayev, B. Azəroğlu, H.Abbaszadə, A.Zeynallı, F.Qoca, V.Bəhmənli, İ.Vahabzadə kimi güclü qələm sahiblərinin məqalələri gedib. Əkbər Ağayev yazısını "Şeirimizin Süleymanı" adlandırıb. Ə. Ağayev kimi güclü bir tədqiqatçı onun poeziyasını Azərbaycan sovet ədəbiyyatının ən gözəl parlaq səhifələrindən biri kimi qiymətləndirib. Ə.Ağayevin məqaləsində S.Rüstəm xalqımızın şanlı qələbələr yolunu, həyat həqiqətlərini tərənnüm edən və özünü xalqa qəbul etdirən bir qələm sahibi kimi təqdim olunur. Ə.Ağayev yazır: "Şairin Vətən uğrunda, el uğrunda Süleymanlıq elə! "- misrasındakı poetik məna tutumu çox geniş, çox dərindir. Burada vətəndaşlıq duyğusu, müasirlik, xəlqilik bir-birini tamamlayaraq,.... xüsusi ahəng yaradır" (10,51). Doğrudan da, S.Rüstəmin üslubu elədir ki, sözlər, kəlmələr öz ətrafında fırlanmır, birbaşa semantik fonda oturur, qəbul edilir, qeyri-ixtiyari poetik çalarlılıq formalaşır. Süleyman tərzində yaranan epik, yaxud lirik şeir müəllifinin imzası olmadan belə özünü tanıdır. S.Rüstəm yaşadığı mühitdə, yaxyd kənarda baş verən eşitdiyi, gördüyü hər bir məsələyə, hadisəyə real münasibətini bildirməyi bacaran vətəndaş şairdir, poeziyasında həssasdır, ehtiraslıdır. Bu fikri əsaslandırmaq üçün yalnız onun Cənub həsrətli poeziyasını nümunə gətirmək kifayətdir. Vətəndaşlıq duyğusu o qədər güclüdür ki, təkcə bu mövzunun poetik vəsfi iri həcmli kitablar halında nəşr olunur. Zaman yazıçıya, şairə çox mövzu verir. Məsələ ondadır ki, onu S.Rüstəm kimi real bir şəkildə təsvir obyektinə çevirib kütlənin nəzər-diqqətini çəkmək hər kəsin işi deyil. O, özünü "bir qızıl kitab" kimi oxumağa çağırır. Bu, şair eqosu deyil, oxucunu dialoqa dəvət edən, özünə inanan bir xalq şairinin yaradıcılıq hesabatına hazır olmasının poetik işarəsidir. Onun poeziyasında zalımlara qarşı apardığı mübarizə bəşəri xarakter daşıyır. Haqqın səsini boğmaq istəyənlərə atom güclü poeziyasını sipər edərək təkcə öz etirazını deyil, Azərbaycan xalqının da eyni münasibətini təcəssüm etdirir. Vətənini sevir, onunla fəxr edir. Bəzən Cənuba münasibətində onun qeyri-müəyyən mənəvi-psixoloji "basqı" altında qalmasına yönələn "işarələr" də olur. Bu mövqeyi düzgün hesab etmirik. Onun hər şeirində lirik qəhrəmanın zərif, tül pərdəsinin arxasında "dəmir" təfəkkürlü S.Rüstəmi görürük.

B.Azəroğlu isə özünü həm bakılı, həm təbrizli adlandıran şairi və məqaləsinin adını "Təbrizin fəxri vətəndaşı" adlandırır. S.Rüstəmi Təbrizin mənəvi havadarı, ədəbiyyatımızın ağsaqqalı, nəcib, humanist, xeyirxah və həssas şair kimi təqdim edir. Milli Azadlıq Hərəkatı dövründə S.Rüstəmin Cənubi Azərbaycanın ayrı-ayrı bölgələrinə getməsini, orada təntənəli çıxışlar etməsini bilirdi. B.Azəroğlu yazırdı ki, S.Rüstəmi görmək üçün Təbrizə-"Vətən yolunda" qəzetinin redaksiyasına, Səraba, Ərdəbilə getdim, onu görmək mənə yalnız 1945-ci ildə Bakıda qismət oldu. 1941-1946-cı illər hərəkatı zamanı Azərbaycan dilinin dövlət dili olması böyük qələbə idi və buna bütün qəlbiylə sevinənlərədən biri də S.Rüstəm idi. B.Azəroğlu fikrini S.Rüstəmə həsr etdiyi şeiriylə bitirir.

Təbriz səngər olmuşdur haqqım deyən bir elə,
Bunu təsdiq eyləyən tarixin yaddaşıdır.
Kim bilmir ki, Süleyman cənub şeirləriylə,
O qəhrəman şəhərin Fəxri Vətəndaşıdır (10,56).

Hüseyn Abbaszadə "Biz də inanırıq" məqaləsi ilə təbriklərə qoşulur. Xalqın qəlbinə yol tapan, milyonların sevimlisinə çevrilmiş böyük sənətkarın poeziyasının qüdrətinə inandığını yazır: "Mən böyük şairimizlə neçə səfərdə, neçə yaradıcılıq görüşündə olmuşam. Onda görmüşəm ki, xalqımız öz sənətkarını necə ürəkdən sevir. Hər yerdə onu necə hörmətlə, böyük ehtirasla qarşılayır" (10, 56). 1980-cı ilin əvvəllərində "Pravda" qəzetində moskvalı ədəbiyyatşünas Sergey Koşeçkinin məqaləsində S.Rüstəmin xalq tərəfindən necə hərarətlə qarşılanması xüsusi olaraq vurğulanmışdır.

S.Rüstəm yaradıcılığında siyasi lirika üstünlük təşkil etsə də, onun həyatın bütün sahələrini özündə əks etdirən şeirləri var. Hətta ciddi dərəcədə diqqət çəkən gözəl məhəbbət şeirləri var.

Vaqif Bəhmənli yazısında S.Rüstəmin yaşının artmasını nəzərə almır, onu qiymətləndirir ki, o, əsl şair ömrü yaşayıb.

S.Rüstəm müharibə dövründə Təbrizdə oldu. Ancaq 60-80-ci illərdə "Cənubi Azərbaycan silsiləsi" yaratdı. Onun "İki sahil" kitabı da Cənub həsrətli digər kitabları kimi oxucu kütləsi topladı.

Azərbaycnın görkəmli şairlərindən Balaş Azəroğlu Cənub həsrətli bir şairdir. Vətəni fars şovinizminin tapdağı altında olan şair Cənubda yaşayanda da, Milli Azadlıq Hərəkatı qan içində boğulanda da Təbrizlə nəfəs aldı. Cənub mövzusu bütün yaradıcılığı boyu onu izlədi. Bu dərd onun içində idi, mənəvi bir yük kimi onu təqib edirdi. Cənub həsrəti ilə yazıb-yaradanlara da çox hörmətlə yanaşır, onların Təbriz dərdinə şərik çıxırdı. "Ədəbiyyat və İncəsənət" qəzetinin 1986-cı il, 19 dekabr sayında onun "Təbrizim" adlı məqaləsi S.Rüstəmin 1985-ci ildə "Yazıçı" nəşriyyatı tərəfindən nəşr edilən "Təbrizim" adlı şeir kitabına həsr olunub. Bizcə, Təbrizim kəlməsi S.Rüstəmin qələminə daha çox yaraşır. Çox sayda demokrat yazıçı və şairlər Təbrizin şəninə saysız-hesabsız əsərlər yazdı. Ancaq hamımızın unudulmayan, sevimli Təbrizimizin əsl hamisi xalq şairimiz S.Rüstəmdir. İşğalçıların tapdağı altında hər dəfə küçə-küçə dağılan Təbriz onu sevən təbrizlilər tərəfindən yenidən tikildi. "Təbrizim" kitabında verilən, sevimli şairimizin arzularını, həyəcanlarını özündə əks etdirən şeir nümunələrini bir-bir nəzərdən keçirir, S.Rüstəm dühasının böyüklüyünü bir daha oxucuların gözü önündə canlandırır. Oxucu xəyalən şairin təbrizli günlərinə qayıdır, onun Təbriz sevgisini təkrar-təkrar yaşayır. B.Azəroğlu yazır: "Qətran Təbrizdən başlamış bu günə qədər Təbriz haqqında, onun bədii fəlakətlərə, basqınlara məruz qalması, amansız qanunlarla üzləşməsi, istiqlal mübarizələri barədə saysız-hesabsız şeirlər yazılmışdır. Ancaq cəsarətlə demək olar ki, heç kəs S.Rüstəm qədər Təbrizə şeir həsr etməmiş, bu şəhərin ağrı və acılarını, fərəh və nisgillərini onun kimi dərindən yaşayaraq şeirə gətirməmişdir" (8,6). Cənubi azərbaycanlılar XX əsrə insan hüquqları uğrunda mübarizə ilə başladı. Səttərxanın, Xiyabaninin başçılığı ilə aparılan xalq üsyanları qan içində boğuldu. Eyni taleyi S.C.Pişəvərinin rəhbərliyi altında həyata keçirilən Milli Azadlıq Hərəkatı da yaşadı. S.Rüstəm "Sən deyilmidin" , "Təbrizli qız", "Oralıyam"və s. əsərlərində bu mübarizənin tarixi keçmişini xatırladır:

Gəlmə pərişan kimi,
Vuruş qəhrəman kimi,
Baban Səttərxan kimi....(8,6).

1946-cı ildə inqilab qələbə qazandı. Bir çox qanunlar kimi, ana dili haqqında da qanun qəbul olundu. Azəroğlu bu məsələdən S.Rüstəmin fərəh hissi keçirdiyini, bu mövzuda bir-neçə şeir yazdığını qeyd edir.

Azadlıq günəşindən can gəlsin torpağına,
Təbrizli, savalanlı, ərdəbilli qardaşım.
Uzun illər kilidli dilin açıldı artıq,
Doğma anam laylalı, anam dilli qardaşım (8,6)

Kitabda toplanan şeirlərdə Cənubi azərbaycanlıların bir əsrlik həyatının bədii inikası var. Cənubda baş verən hadisələr uzun yol qatarı kim S. Rüstəmin həyatından keçib. Şair inanırdı ki, dünyanı Milli Azadlıq Hərəkatı öz ağuşuna aldığı bir dövrdə İranda şahlıq rejimu uzun sürməyəcəkdir. Bu məqamda B.Azəroğlunun yadına adını unutduğu müdrik bir insanın sözü düşür: "....indi dünyada iki şah qalıb, biri şahmatda, o biri də İranda" (8,6). Uzun illər İranda, Cənubi Azərbaycanda şah qoşunları ilə vuruşan çox azadlıq mücahidi şəhidlik zirvəsinə qalxdı. Təbrizdə göz yaşı "dinmədi". S.Rüstəm hakimiyyətini uzatmaq istəyənlərə həsr etdiyi və bu kitabda öz əksini tapan "Ehtiyac" şeirində yazır:

Qəmli zindanlara yol çəkənlərin
Başda əmmamətək qızıl tacı var (8,6).

Uzun illər S. Rüstəm Təbrizi vəsf etdi, qədirbilən təbrizlilər ona minnətdarlıq dolu məktublar yazdı. XX əsrin böyük Azərbaycan şairi M.Şəhriyarla S.Rüstəmin məktublaşmaları başqa iri həcmli bir ədəbiyyatşünaslıq materialıdır.

Yazıçılar birliiyinin aylıq ədəbi-bədii orqanı olan "Azərbaycan" jurnalı öz səhifələrində uzun illərdir ki, Cənubi Azərbaycanla bağlı çox yazılar əks etdirib. O cümlədən jurnalın səhifələrində S. Rüstəm poeziyasından incilərlə tez-tez rastlaşmışıq. Jurnalın 2007-ci il, mart sayında da gözəl şairimizin "Təbrizim", "Şair qardaşıma məktub" adlı şeirləri nəşr olunub. Dəfələrlə oxuduğumuza baxmayaraq, Şəhriyara yazdığı bütün "məktubları"ndakı ayrılıq həsrəti insanı kövrəldir. Üzünü bir kərə də görmədiyi Şəhriyarla uzun illərin dostu kimi söhbət edir. Ünvanımızın, adımızın və şanımızın, qanımızın, ürəyimizin, vətənimizin də bir olduğunu söyləyir. "Heydər baba" poemasının gözəlliyinə işarə edir. Arzu edir ki, bir də torpağımıza qan çilənməsin. Onu Bakıya dəvət edir:

Gəl Bakıya bağım-bağçam güləndə,
Bircə ovuc torpaq gətir gələndə.
Bəlkə onda kama çatam, Şəhriyar,
Son mənzildə rahat yatam, Şəhriyar (9,5).

Ömrünün axır zamanlarında yazdığı "Qarabağ" şeiri də jurnalın 3-cü sayında verilib. Yaxşı ki, şair yalnız Cənub dərdi ilə gözlərini həyata yumdu. Qarabağ dərdindən xəbərdar olmadı. Yoxsa ki, həyata inamı tamamən itərdi.

Sən canımsan, ciyərimsən, ürəyimsən, ürəyim.
Deyirəm, car çəkirim, canlara candır Qarabağ
Sən bilirsən ki, mənim təkcə Cənub dərdim var.
Ayrılıq dərdi ölümdən də yamandır Qarabağ (9,5).

Qarabağa ana deyən şair bir övlad kimi onu qəlbindən uzaq tutmamasını xahiş edir. Hər sabahını Təbrizi görmək ümidi ilə açan şair xalqına pənah aparır. Təbrizə gedə bilmir, ancaq "günahlarını" şeirləriylə yuyur. Poeziyası ilə hicranı vüsala çevirir. Onun təlaşı hədər deyil, Təbrizi görsə, ürəyi təsəlli tapar. Bu cəhətdən "Görsəm" şeirində misralarına sığınan şair dünəni səfalı, bu günü qan-yaş axıdan, əzablı, cəfalı Təbrizini düşünür. Yaşı artsa da, yorulmaz və coşğun ilhamı fəaldır. Özü də, şair ilhamı da Vətən uğrunda, el uğrunda "Süleymanlıq" edir. O, mənalı bir həyat yaşadı, Azərbaycan ədəbiyyatı tarixində vətəndaş şair kimi də öz yerini tutdu.

## Ədəbiyyat


1. *"Ədəbiyyat və İncəsənət" qəzeti. 1975, 29 mart.*
2. *"Azərbaycan" jurnalı. 1971, №10*
3. *"Ədəbiyyat və İncəsənət" qəzeti. 1978, 18 noyabr.*
4. *"Ədəbiyyat və İncəsənət" qəzeti. 1978, 23 dekabr.*
5. *"Ədəbiyyat və İncəsənət" qəzeti. 1980, 30 may.*
6. *"Ədəbiyyat və İncəsənət" qəzeti. 1988, 01 may.*
7. *"Azərbaycan müəllimi " qəzeti. 1986, 21 may.*
8. *"Ədəbiyyat və İncəsənət" qəzeti. 1986, 19 dekabr.*
9. *"Azərbaycan" jurnalı, 2007. №3*

*10 "Azərbaycan" jurnalı, 1986. №3*





***Sakibə** ələsgərova*

***ADPU-nun dosenti, filologiya üzrə fəlsəfə doktoru, əməkdar müəllim***

*E mail- sakibaalesgerova@mail.ru*
*<mailto:sakibaalesgerova@mail.ru>*